**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**KÖNÜL SABİR qızı BAĞIROVA**

# AZƏR BUZOVNALININ POETİK İRSİ

**5716.01** – Azərbaycan ədəbiyyatı

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Paşa Əli oğlu Kərimov,**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Vüqar Mikayıl oğlu Əhməd,**
filologiya üzrə elmlər doktoru, professor

**Tərlan Aslan oğlu Quliyev,**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedoqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə "____" _________ 2018-ci il saat ___-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131– Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ____" _________2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**

filologiya üzrə fəlsəfə doktoru

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Klassik Şərq poeziyasının, Türk dünyasının iki ən böyük söz sərkərdəsi Əlişir Nəvai və Məhəmməd Füzuli ədəbi məktəbinin istedadlı davamçısı Məşədi Azər Hacı Məcid oğlu İmaməliyev Buzovnalı (1870-1951) milli-mədəni, ədəbi fikir tariximizə ustad şair, qəzəlxan, mütərcim, maarifçi-pedaqoq kimi daxil olmuşdur. Milli ədəbiyyatımızın inkişafında xüsusi rolu olan Bakı ədəbi məclisi "Məcməüşşüəra"nın fəal nümayəndələrindən olan şair yaşadığı dövrün nüfuzlu söz sahibi kimi bu məclisin yığıncaqlarında iştirak etmiş, ədəbi aləmə yeni qədəm qoyan bir çox şairlərin ustadı olmuş, poeziyamıza müxtəlif məzmunlu qiymətli əsərlər bəxş etmişdir.

Azər Buzovnalının həyat və yaradıcılığının müxtəlif aspektlərdən araşdırılması – ədəbi, elmi-ictimai, publisistik, tərcüməçilik fəaliyyətinin dərindən tədqiqi, müxtəlif janr və vəznlərdə qələmə aldığı əsərlərin sənətkarlıq xüsusiyyətlərinin təhlili, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında yeni-yeni imzaların tanıdılması istiqamətində xidmətləri kimi məsələlərin müəyyənləşdirilməsi şairin poetik irsinin öyrənilməsi ilə yanaşı, onun yaşayıb-yaratdığı dövr haqqında daha ətraflı təsəvvür əldə edilməsi baxımından əhəmiyyətlidir. Əlbəttə ki, poetik yaradıcılığı mövzu dairəsi, janr və forma xüsusiyyətləri, vəzn və qafiyə etibarı ilə zəngin və rəngarəng olan ədibin irsi ədəbiyyatımızın öyrənilməsində də əhəmiyyət kəsb edir və onun poeziyası klassik Şərq poetikası kontekstində araşdırılmalıdır. Hər şeydən əvvəl, şairin Azərbaycan ədəbiyyatına hansı töhfələr verməsi, siyasi konyunktura və sovet ədəbi tənqid maşını tərəfindən təzyiqlərə məruz qalmasına baxmayaraq dövrünün ədəbi arenasında ən oxunaqlı və ustad sənətkarlar arasında olmasının səbəbləri aydınlaşdırılmalıdır.

Azər Buzovnalının ədəbi irsi indiyədək geniş və əhatəli şəkildə tədqiqata cəlb olunmadığı üçün mövzu aktuallıq kəsb edir. Şairin həyat və yaradıcılığı XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Azərbaycanda gedən ədəbi, mədəni, eləcə də tarixi proseslərin öyrənilməsində qiymətli mənbədir. Dissertasiya işində bu problemlərə ilk dəfə olaraq əhatəli nəzər salınmışdır.

Şairin yaradıcılığının əsas hissəsini məhz onun lirik-aşiqanə məzmunlu şeirləri təşkil edir. Azər Buzovnalı lirikasının özülünü təşkil edən qəzəlləri ilə daha çox tanınsa da, şair klassik ədəbiyyatın təsiri ilə şeirlər yazan bəzi dövrdaş qələm əhlindən fərqli olaraq, yalnız məhəbbət mövzusu ilə kifayətlənməmiş, ictimai-fəlsəfi, ümumbəşəri məzmunlu, milli tarixi-

mizi, mənəvi dünyamızı əks etdirən əsərlər də qələmə almağa, dövrünün aktual problemlərini yaradıcılığında əks etdirməyə müvəffəq olmuşdur. Azər Buzovnalı klassik ənənələrə əsaslanan, modern yanaşma tərzi ilə süslənmiş vətəndaş münasibəti, qayəsində türkçülük-islamçılıq olan mənəvi ruh, istiqlal və parlaq gələcək arzusu olan çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbi-ictimai fikrinin inkişafında, poeziyanın məzmun və mündəricə baxımından zənginləşməsində özgün və xüsusi rol oynamışdır. İlahi və real eşqin tərənnümü, haqsızlığa və despotizmə nifrət, azadlıq eşqi, vətənin taleyi, milli-mənəvi dəyərlərə sahib çıxmaq uğrunda mübarizəyə çağırış, türkün şanlı tarixinin tərənnümü onun yaradıcılığının əsas leytmotivini təşkil edir. Şairin poetik irsi ideyalılığı, bədii siqləti, kəsəri, fikir tutumu, dini-fəlsəfi dərinliyi, tarixi məlumatlarla zənginliyi, əxlaqi-didaktik xüsusiyyətləri baxımından diqqəti cəlb edir. Ona görə də Azər Buzovnalı yaradıcılığının tədqiqi əslində milli ədəbiyyatımızın böyük bir epoxasının, milli-mədəni həyatımızın mühüm və konkret səhifəsinin araşdırılması deməkdir. Şairin poeziyası özünəməxsus deyim tərzi, üslubu, sənətkarlıq keyfiyyətləri ilə seçilir.

Azər Buzovnalı klassik üslubla yanaşı, şifahi xalq ədəbiyyatı üslubunda, heca vəznində də qələmini sınamışdır. Klassik janrlarda rəvan və axıcı şeirlər müəllifi olan Azər Buzovnalının heca vəznində yazdığı əsərlərdə təbiət gözəllikləri, saf məhəbbət tərənnüm olunmuş, dövrünün ictimai-siyasi mənzərəsi əks etdirilmişdir. Şərq dillərinə bələd olan ustad sənətkar Əbülqasım Firdovsi, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Sədi Şirazi, Hafiz Şirazi yaradıcılığına dərindən rəğbət bəsləmiş, onların əsərlərindən tərcümələr və iqtibaslar etmişdir.

Azər Buzovnalının ədəbiyyat tarixindəki əvəzolunmaz xidmətlərindən biri də onun türk xalqlarının soykökündən, mənşəyindən, həyat tərzindən, tarixi keçmişindən bəhs edən "Oğuznamə", "Çingiznamə" kimi poemaları qələmə almasıdır. Azər Buzovnalının sovet qılıncının kəskin dövründə qələmə aldığı "Oğuznamə", "Çingiznamə" dastanları dəyərli tarixi-bədii əsərlər olmaqla yanaşı, həm də şairin milli soykökünə, mənəvi dəyərlərə verdiyi qiymətin təzahürüdür. Şair İslamın intişarını, yayılmasını və Hz. Məhəmməd Peyğəmbərin (s.a.s) mücadiləsini əks etdirən "Qəzavatnamə" də yazmışdır. İri həcmli "Qəzavatnamə"də müsəlmanların İslam dini uğrunda qəhrəmanlığı, bu yolda şəhid olanların şücaəti ətraflı tərənnüm edilmişdir. Əsas mövzusu İslamın yaranma tarixi və genişlənməsi, İslamın intişarı uğrunda gedən mücadilə olan "Qəzavatnamə"də Peyğəmbərin (s.a.s.) yaşayış tərzi, onun dövrü və səhabələri haqqında bilgi, Qurani-Kərimdən ayələr də vardır.

Azər Buzovnalı Məhəmməd Füzuli və Əlişir Nəvai məktəbinin XX əsrdəki ən layiqli davamçısı kimi əsasən klassik üslubda əsərlər ərsəyə gətirsə də, mövzu etibarilə dövrün nəbzini tutur, yeniliyə meyl edirdi. Onun əsərlərində yenilikçilik ruhu, forma axtarışları aydın şəkildə sezilir. Şairin yaradıcılığının özülünü təşkil edən lirikası – qəzəl, rübai, müstəzad, təkbeyt, məsnəvi və dördlükləri, mənzum hekayələri, alleqorik əsərləri, qoşmaları yüksək bədii sənətkarlıq keyfiyyətlərini özündə cəmləmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti Azər Buzovnalının zəngin ədəbi irsi, həyat və yaradıcılığına dair mənbələr, Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan özünün və digər şəxslərin arxivindəki materiallardır.

Şairin həyat və yaradıcılığı, ədəbi irsinin mövzu dairəsi, şeirlərinin sənətkarlıq, janr, bədii forma xüsusiyyətləri, bədii ifadə vasitələri dissertasiyanın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azər Buzovnalının zəngin ədəbi irsinin ideya, məzmun, forma və bədii sənətkarlıq xüsusiyyətləri baxımından tədqiqi, müxtəlif mövzuları əhatə edən poetik irsini ədəbi janrlar və üslubi baxımdan araşdıraraq Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyini aydınlaşdırmaq, indiyədək tədqiqata cəlb olunmamış əsərlərini təhlil edib, onların bədii sənət nümunəsi kimi dəyərini müəyyənləşdirməkdir. Bu məqsədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

–Azər Buzovnalının anadan olduğu Bakı şəhəri, ədəbi və ictimai mühiti, həyatı, ailəsi və dostları, qələmdaşları ilə münasibətlərinə dair məlumatları araşdırmaq, keçirdiyi ömür yoluna elmi-nəzəri aydınlıq gətirmək, müxtəlif mənbələr əsasında əldə olunmuş faktları müqayisəli şəkildə tədqiqata cəlb etmək;

–Azər Buzovnalının həyat və yaradıcılığının tədqiq tarixini araşdırmaq, onun yaradıcılıq yolundan bəhs edən əsərlərdə şair haqqında söylənilən fikirləri ətraflı təhlil etmək, sağlığında və ölümündən sonra əsərlərinin nəşri məsələsini nəzərdən keçirmək;

–Şairin XX əsrin əvvəllərində fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisindəki mövqeyini, bir çox gənc qələm sahibinin ədəbi aləmə tanıdılmasındakı xidmətini işıqlandırmaq;

–Azər Buzovnalının lirik irsini araşdırmaq, müxtəlif vəznlərdə qələmə aldığı sənət nümunələrinin bədii dəyərini, mövzu zənginliyini təhlil etmək, şeirlərinin əsas özəyini təşkil edən bəşəri və ilahi məhəbbəti

tərənnüm edən poetikasının sənətkarlıq keyfiyyətlərini üzə çıxarmaq, lirikasının səciyyəvi xüsusiyyətlərini araşdırmaq;

–Şərq ədəbiyyatının dəyərli incilərini ana dilimizə çevirən Azər Buzovnalının yaradıcılığının mühüm hissəsini təşkil edən tərcüməçilik fəaliyyətini araşdırmaq, bədii tərcümələrinin səviyyəsini, keyfiyyətlərini təhlil etmək;

–Azər Buzovnalının qələmə aldığı "Oğuznamə", "Çingiznamə", "Qəzavatnamə" əsərlərinin Azərbaycan ədəbiyyatında bədii sənət nümunəsi kimi özünəməxsusluğunu incələmək, bu tarixi əsərlər kontekstində müəllifin milli keçmişimizə, milli mənəvi dəyərlərə və əsasən də yaşadığı cəmiyyətə olan münasibətini araşdırmaq, tarixi mövzunun ədibin yaradıcılığındakı rolunu müəyyən etmək;

–Şairin əsərlərinin janr və forma xüsusiyyətlərini, müxtəlif məzmunlu şeirlərində təsvir, tərənnüm və tənqid obyektlərini nəzərdən keçirmək, rəngarəng obrazlar sistemini təhlil etmək; dini məzmunlu lirik yaradıcılığında İslam dini, İslam fəlsəfi fikri və təsəvvüfi dünyagörüşünün əks olunma dairəsini müəyyənləşdirib, bu mövzuda yazdığı əsərlərində din və cəmiyyət məsələsinin qoyuluşunu incələmək;

–Azər Buzovnalının poetik irsini klassik Şərq poetika elminin nəzəri müddəaları əsasında tədqiqata cəlb etmək və şairin şeirlərinin sənətkarlıq xüsusiyyətlərini, fərdi dil və üslubi özəlliklərini təhlil etmək; Şairin klassik Şərq poeziyasının qanun-qaydalarından, söz və məna incəliklərindən bəhrələnməsi, lirik və epik yaradıcılığında onlardan məharətlə istifadə etməsi məsələlərinə aydınlıq gətirmək;

–Azər Buzovnalının yaradıcılığının poetik bütövlüyünü təyin etməklə yaradıcılığına xas fərdi üslubi çalarların bədii forma elementləri kimi dil-ifadə vasitələrini təhlil etmək;

–Sovet dövründə Azər Buzovnalı yaradıcılığına ədəbiyyatşünasların, tənqidçilərin qeyri-obyektiv, ədalətsiz, qərəzli münasibətini müasir ədəbi tənqid prizmasında nəzərdən keçirmək; yaradıcılığında ənənə və müasir ədəbi istiqamətləri sintez şəkildə əks etdirən şairin XIX-XX əsrlər Azərbaycan ədəbiyyatında mövqeyini müəyyənləşdirmək.

**Mövzunun tədqiq tarixi.** Bakı ədəbi mühitinin yetişdirdiyi söz ustadı Azər Buzovnalının fəaliyyəti dövrümüzdə ədəbiyyatşünasların diqqətini cəlb etmiş, yaradıcılığı bir sıra araşdırıcılar tərəfindən nəzərdən keçirilmişdir. Azərbaycan ədəbiyyatşünaslığında şairdən bəhs edən alimlər sırasında Bəkir Nəbiyev, Əziz Mirəhmədov, Cahangir Qəhrəmanov, Məmmədağa Sultanov, Teymur Əhmədov, Nəsrəddin Qarayev, Ədalət

Tahirzadə, Mehri Məmmədova, Paşa Kərimov, Ramiz Faseh Paşayev, Sona Xəyal və başqalarını qeyd etmək olar.

Şairin həyat yolunu, ədəbi fəaliyyətini araşdıran tədqiqatçılar Azər Buzovnalının yaradıcılığından, elmi-publisist, ədəbi-ictimai, pedoqoji fəaliyyətindən bəhs edən yazılarında onu klassik ədəbi məktəbin, xüsusən də Nəvai və Füzuli ədəbi məktəblərinin XX əsrdəki ən istedadlı davamçısı kimi təqdim etmişlər.

**Tədqiqatın elmi yeniliyi.** Azər Buzovnalının yaradıcılığı ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq dissertasiya səviyyəsində əhatəli şəkildə elmi tədqiqata cəlb edilir. Şairin yaradıcılığı kontekstində Azərbaycan ədəbiyyatının inkişaf yoluna nəzər salınır, XIX əsrin ikinci yarısı -XX əsrin birinci yarısında ədəbi mühitə xas olan xüsusiyyətlər, ədəbi cərəyanlar, ədəbi istiqamətlər, dövrün ictimai-siyasi, elmi-ədəbi mənzərəsi haqqında məlumat verilir. Azər Buzovnalının dövrü, mühiti, həyatı və müasiri olan sənətkarların yaradıcılığının ideya-estetik keyfiyyətləri müqayisəli şəkildə araşdırılır, bioqrafiyası ilk dəfə olaraq elmi şəkildə işlənir, doğum və ölüm tarixləri dəqiqləşdirilir, məhəbbət və təbiət lirikası, vətənpərvərlik şeirləri, tarixi mövzulu əsərləri və sənətkarlıq, dil-üslub xüsusiyyətləri, bir pedaqoq kimi maarifçilik hərəkatındakı mövqeyi, tərcüməçilik, publisistik fəaliyyəti təhlil edilir. Bütün bunlar şairin şəxsiyyətinin və sənətinin tədqiqi sahəsində yeni bir addım sayıla bilər. Şairin ədəbi və ictimai fəaliyyətinə dair təhlillər, onun Əlyazmalar İnstitutundakı arxivində cəmlənən şəxsi fondu, digər fondlarda qorunan əlyazma və çap qaynaqları əsasında aparılmışdır. Tədqiqat zamanı şairin arxivinin təsviri ayrıca bir kitab halında çap edilmiş, burada saxlanılan əsərlər, tərcümələr müasir əlifbaya transfoneliterasiya edilərək, iki cildlik kitab şəklində nəşr olunmuşdur.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Azərbaycan ədəbiyyatşünaslığının elmi-nəzəri müddəaları və qazandığı nailiyyətlər əsasında klassik ədəbi irsimizin, o cümlədən, Azər Buzovnalının bədii irsinin tarixi-obyektivlik fonunda araşdırılması tədqiqatın metodoloji əsasını təşkil edir.

Dissertasiya işində Azər Buzovnalı yaradıcılığının tədqiqi zamanı toplanmış materiallar sistemləşdirililmiş, ənənəvi mənbəşünaslıq, tarixi-tipoloji tədqiqat, habelə Azərbaycan ədəbiyyatşünaslığının təcrübəsinə uyğun olaraq müqayisəli və təsviri metoddan istifadə edilmişdir. Bundan əlavə, tədqiqat üçün nəzəri-metodoloji baza funksiyasını Azərbaycan klassik ədəbiyyatına dair materialların toplanılması, qaynaqların əldə edilməsi, nəşri və tədqiqi sahəsindəki mövcud təcrübə təşkil etmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyada XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşayıb - yaradan Azərbaycan ədəbiyyatının

nümayəndəsi Azər Buzovnalının həyat və yaradacılığı ilk dəfə sistemli və ətraflı şəkildə araşdırıldığından bu sahə, xüsusən də klassik Azərbaycan poeziyasının XX əsrdə yaşayan ənənələrini, Füzuli ədəbi məktəbinin yeni məzmunda inkişafını öyrənmək üçün mənbə rolunu oynaya bilər. Şairin həyatını, çoxşaxəli yaradıcılığını və ədəbi mühitini, ictimai-siyasi fəaliyyətini əks etdirən tədqiqat işindən həm də müasirlərinin ədəbi-bədii irsi, şəxsiyyəti haqqında yazılan gələcək dissertasiya işlərində, elmi-monoqrafik və ya publisistik araşdırmalarda istifadə etmək olar.

Tədqiqatın nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinə dair kitabların müvafiq bölmələrinin yazılmasında, ali məktəblərin filologiya fakültələrində müəyyən kursların tədrisində, orta məktəb dərsliklərinə yeni bilgilərin əlavə olunmasında faydalanmaq olar. Dissertasiya həmçinin XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı, ədəbi-nəzəri fikir tariximizə dair tədqiqat aparanlar üçün əhəmiyyətli mənbə sayıla bilər.

**Dissertasiya işinin aprobasiyası**. Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsində hazırlanmışdır. Araşdırmanın əsas müddəaları və nəticələri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnal və məcmuələrdə, eyni zamanda xarici ölkələrin nüfuzlu jurnallarında dərc olunmuş məqalələrdə, həmçinin beynəlxalq və respublika miqyaslı elmi konfranslarda etdiyi məruzələrdə əksini tapmışdır. Şairin ədəbi irsi dissertant tərəfindən hazırlanmış "Azər Buzovnalı. Seçilmiş əsərləri" ikicildliyində (2007, 2012) və Əlyazmalar İnstitutunda qorunan arxiv materialları əsasında "Azər Buzovnalının şəxsi arxivinin təsviri" (2015) adlı nəşr olunmuş kitablarda toplanmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işin obyekti və predmeti, məqsəd və vəzifələri göstərilmiş, işin nəzəri və metedoloji əsasları, praktik əhəmiyyəti və quruluşu haqqında məlumat verilmişdir. Tədqiqat işi üç fəsildən ibarətdir.

Dissertasiya işinin I fəsli **"Azər Buzovnalının həyatı və yaradıcılıq yolu"** adlanır. **"Dövrü və həyatı" adlanan** birinci yarımfəsildə şairin dövrü, həyatı haqqında məlumat verilir. Şairin yazıb-yaratdığı dövrü "yeni bir intibah dönəmi" kimi dəyərləndirən ədəbiyyatşünaslar əsrin görkəmli ədib və şairlərinin böyük bir ictimai hərəkat içərisində kütlələrin fəryadına

yetişdiyini, mübarizə səhnəsinə atıldığını qeyd edirlər[1]. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixində elm və mədəniyyət sahəsi daha qızğın, çoxşaxəli inkişaf yolu keçirdi. Tədqiqatçıların da qeyd etdiyi kimi mürəkkəb ictimai-siyasi vəziyyətin hökm sürdüyü bu dövrdə çoxşaxəli ədəbi proseslərin intişar tapdığı "Azərbaycanda ən geniş yayılan (əlbəttə, ən çox ziyalılar arasında) məfkurə cərəyanları qərbçilik, osmanlıçılıq, islamçılıq, türkçülük və azərbaycançılıq idi"[2]. Həqiqətən də, iki əsrin qovşağında inkişaf edən ədəbi mənzərəni nəzərdən keçirdikdə görürük ki, dövrün mürəkkəbliyi, ideoloji xaosu ədəbi əsərlərə də hopmuşdur, ədəbiyyat şəraitin, mühitin bütün müsbət və mənfi tərəflərini əks etdirmişdir.

Azər Buzovnalının arxivindəki materiallar arasında rus dilində makina çapı ilə şairin özünün tərtib etdiyi "Türk şairi Azər Məcid oğlu İmaməliyev" adlı qısa tərcümeyi-halında həyat yolundan bəhs edilir. Burada şairin 1870-ci ildə Buzovnada anadan olması, gənc yaşlarından Şərq ədəbiyyatına böyük maraq göstərməsi və buna görə Şərq poetikasının ən xırda incəliklərinə vaqif olmaq üçün türk, fars, ərəb dillərini mükəmməl öyrənməsi haqqında məlumat verilir. Tərcümeyi-halda Məşədi Azərin Dağıstanda yaşadığı illərdə ikisinifli rus məktəbində təhsil alması, ilk şeirlərini yazmağa başlaması qeyd olunur. Bundan başqa, şairin "İrşad", "Səda", "Sədayi-həqq", "İttifaq", "Dirilik", "Babayi-Əmir", "Zənbur", "Şərq qadını", "Oktyabr alovları" adlı qəzet və jurnallarda müxtəlif səpkili şeirlərinin dərc olunduğu göstərilir. Sonda şairin "Həmvətənlərim" kitabının xüsusi dövlət müəssisələri tərəfindən icazə ilə nəşr olunduğu qeyd edilir[3].

Ümumiyyətlə, şairin həyatına dair məlumatlar AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun müxtəlif arxivlərində saxlanılan materiallardan, eləcədə özü haqqında verdiyi qısa avtobioqrafik sənədlərdən, sağlığında nəşr olunan dövri mətbuat və haqqında bilgi verilən monoqrafik əsərlərdən və onu yaxından tanıyan şəxslərin xatirələrindən əldə edilmişdir.

Dissertasiya işinin I fəslinin **"Mühiti və müasirləri"** adlanan ikinci yarımfəslində şairin dövrdaşları ilə yaradıcılıq münasibətlərinə toxunulur,

---

[1]Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş üçüncü nəşri. Bakı: Maarif, 1982, s.11.

[2]Nəbioğlu V. Azərbaycan bədii nəsrinin janr-üslub təkamülü. XIX-XX əsrlər. Bakı: Elm, 2004, s.81.

[3]AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Fond 12, sax. vah. 5.

onların bir-birinə yazdıqları nəzirələrdən, ithaflardan bəhs olunur. Azər Buzovnalının yaşadığı dövrdə XIX əsrin sonu - XX əsrin əvvəllərində bədii yaradıcılıqla məşğul olan insanların fikirlərindəki rəngarənglik, mövzu, ideya müxtəlifliyi onların əsərlərində öz əksini tapırdı. Şairlər, yazıçılar, şeir-sənət həvəskarları müxtəlif ədəbi məclislərdə toplanaraq müşairələr aparır, ədəbiyyata, poeziyaya dair fikirlərini bölüşürdülər. Tədqiqatçılar Azər Buzovnalının ədəbiyyat tarixindəki mövqeyindən bəhs edərkən onun xüsusən "Məcməüş-şüəra"dakı xidmətlərini yüksək qiymətləndirirlər. Azər Buzovnalının yaradıcılığı yalnız "Məcməüş-şüəra"dakı fəaliyyəti ilə məhdudlaşmır. Şair Bakıda və digər yerlərdə fəaliyyət göstərən ədəbi mərkəzlərlə əlaqələr qurmuş, nəzirələr, ithaflar, iqtibaslar yazmış, ədəbi çevrəsini genişləndirmiş, gənc qələm əhlini də öz ətrafında toplamışdı. Məclis üzvləri həm öz aralarında, həm də başqa məclis üzvləri ilə müşairələr təşkil edirdilər ki, bu da ədəbi əlaqələrin genişlənməsinə rəvac verirdi. Şairin təşəbbüsü və yaxından iştirakı ilə "Məcməüş-şüəra" ədəbi məclisinin üzvləri Azərbaycanın Şamaxı, Dərbənd, Şuşa, Lənkəran, həmçinin, Ərdəbil və Təbrizdə fəaliyyət göstərən poeziya məclisləri ilə əlaqə saxlamışdır. Azərbaycan ədəbiyyatı tarixində mahir qəzəlxan kimi tanınan Əliağa Vahidin yetişməsində də Azər Buzovnalının böyük əməyi olmuşdur. Əliağa Vahid öz xatirələrində dəfələrlə ustadı Azər Buzovnalıya minnətdarlıq hisslərini ifadə etmiş, qəzəllərində söz xiridarını tərif etməkdən usanmamışdır. Hər iki şairin səmimi müəllim-tələbə ünsiyyətinə əsaslanan münasibəti, sonradan iki ustad şair arasında yaradıcılıq əlaqələrinə çevrilmişdi. Vahid Azəri öz ustadı adlandırmış, onun sənətindən zövq aldığını, onun əsərlərindən ruhlandığını ifadə etmişdir.

Azər Buzovnalının Əlyazmalar İnstitutunun arxivində müasirləri ilə münasibətlərini əks etdirən nümunələr onun yalnız sənətkar kimliyini deyil, lazım olduğu məqamda öz sözünü deyə bilən nüfuzlu qələm sahibi, müsbət insani keyfiyyətləri özündə birləşdirən, gənc qələm sahiblərinin yoluna ədəbi aləmdə işıq saçan bir şəxsiyyət olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Azər Buzovnalı "Məcməüş-şüəra" ədəbi məclisinin rəhbəri Məhəmmədağa Cürmi, üzvlərindən Mikayıl Seydi, Mirzə Məhəmməd Müsəvvir, Ağakərim Salik, Seyid Zərgər, Əbdülxalıq Cənnəti ilə ədəbi fikir mübadilələri aparmış, öz fəlsəfi baxışı və milli ideoloji təfəkkürü ilə onlara örnək olmuşdur. Şair eləcə də dövrün görkəmli ədibləri Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əliabbas Müznib, Səməd Mənsur, dərbəndli Qumri ilə ədəbi dostluq münasibətləri qurmuşdur. Ədibin nəvəsi Teymur Rəhimov qeyd edir ki, "o, babasının Buzovnadakı bağına qonaq gələn şairlərə qulluq etmiş və burada oxunan şeirləri həvəslə dinləmişdir.

Bu bağa tez-tez Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Əliağa Vahid, Səməd Vurğun, Salman Mümtaz, Əliabbas Müznib, Əbdülxalıq Cənnəti və başqaları gələr, Azərlə söhbət edərdilər"[1].

Azər Buzovnalının bədii əsərlərindən əlavə, onun epistolyar irsi də müasirləri ilə əlaqələrini əks etdirir. Şairin Səməd Mənsur, Əliabbas Müznib, Əmin Abid və başqaları ilə olan məktublaşmaları buna nümunə ola bilər. Səməd Mənsurla Azər Buzovnalı arasında olan yazışmaları, onların mövcud vəziyyət haqqında fikir mübadilələri Ələkbərli Nazifin "Bir ömrün rəngləri"[2] kitabında geniş şəkildə təsvir edilmişdir.

Səməd Mənsurla Azər Buzovnalının qarşılıqlı yazışmalarında dövrün ictimai mənzərəsini əks etdirən dəyərli faktlar da diqqəti cəlb edir. Mənzum məktublaşmanın köməyi ilə Azərin şəxsiyyəti, cəmiyyətdə baş verən hadisələrə münasibəti ilə bağlı bəzi qaranlıq mətləbləri aydınlaşdırmaq mümkündür. Bu sənəd Buzovnalının sadəcə məclis şairi olmadığını təsdiqləyir, onu epiqonçuluqda günahlandıran, zamandan və dövrün ictimai-siyasi durumundan bixəbərlikdə ittiham edən, baş verənlərə qarşı etinasızlıqda suçlayan ədəbiyyatşünaslara cavab vermək üçün zəmin yaradır. Şairin "Ergenekon" sözünü işlətməsi onun azadlıqsevər olması ilə bərabər qatı bir türkçülük, turançılıq ideologiyası ilə yaşayan, milli iradəyə sahib yenilməz xarakterinin də göstəricisidir. Milli mücadilə dönəmində, Cümhuriyyətin qurulması zamanı və ondan sonrakı dövrlərdə şairin ziyalı və görkəmli ictimai xadimlərlə əlaqəsi sübut edir ki, Azər özü də elə milli hərəkatın fəallarından olmuş, hətta yaşına, təcrübəsinə, mənəvi-əxlaqi dəyərlərinə görə mücadilə tərəfdarları üçün örnək şəxsiyyət sayılmışdır. Onun evi hər bir ziyalının, azadlıqsevərin sığındığı, mənəvi ruh aldığı mərkəz olmuşdur.

XX əsrin əvvəllərində ədəbi və ictimai fikir tarixində şair, publisist, naşir, ədəbiyyatşünas-alim, dilçi, tarixçi və tərcüməçi kimi tanınan Əliabbas Müznibin də Azər Buzovnalı ilə yaxın dostluq əlaqələri olmuşdur. Məfkurə və məslək dostluğu onları ədəbi və ictimai fəaliyyətlərində birgə addımlamağa sövq etmişdir. Ə. Müznibin arxivində A. Buzovnalıya, Azərin arxivində Müznibə dair materiallar yetərincədir.

Azər Buzovnalının Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində yeni bir məktəb yaradan "Molla Nəsrəddin" jurnalı və onun naşiri Cəlil Məmmədquluzadə ilə ədəbi əlaqələri olmuşdur. Satirik jurnal olan "Molla

---

[1]Məşədi Azər. Seçilmiş əsərləri. Tərtibçi: R.Azərsoylu-İmaməliyev. Bakı: Boz oğuz-Nicat, 1996, s.9.

[2] Ələkbərli N.Ə. Bir ömrün rəngləri. Bakı: Elm, 2000,s.71.

Nəsrəddin"in cəmiyyətdəki əyriliklərə olan tənqidinə, üsyankar çağırışlarına, çar istibdadına qarşı apardığı mübarizəyə biganə qalmayan Azər Buzovnalı özünəməxsus bir üslubla dəstək vermişdir. Şair "Molla Nəsrəddin"in təsiri ilə ağır ictimai-siyasi təzyiqlərə düçar olan xalqın ağrı-acısını kinayəli satirik tərzdə öz həcvlərində dilə gətirirdi.

Azər Buzovnalı yaradıcılığı demək olar ki, müasirlərinin əksəriyyətinin diqqət mərkəzində olmuşdur. Tədqiqat zamanı şairin Ə. B. Hüseynzadə, M. Rəsulzadə, H. Cavid, A. Şaiq, S. Mümtaz, H. Ərəblinski, H. Sarabski, H. Abbasov, S. Ruhulla kimi böyük şair, yazıçı və sənətkarlarla da yaxın dostluq və yaradıcılıq əlaqələri olduğu da müəyyənləşdirilmişdir.

Dissertasiya işinin I fəslinin **"İctimai və tərcüməçilik fəaliyyəti"** adlanan üçüncü yarımfəslində şairin sağlığında dövri mətbuatda dərc etdirdiyi şeirlərindən, tərcümələrindən bəhs olunmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, şairin ədəbi-nəzəri fikirlərini əks etdirən dolğun məzmunlu məqalələri müasir dövrümüzə qədər dərc olunmamışdır. Azər Buzovnalı məqalələrində Nizami Gəncəvi əsərlərinin İran nəşri, orta əsrlərdə tərtib olunan təzkirələrin köməyi ilə şairin həyat yoluna dair müxtəlif təzadlı fikirləri nəzərdən keçirmiş, müqayisə yolu ilə əldə etdiyi nəticələri qələmə almışdır. O, Lütfəli bəy Azərin təzkirəsində Nizaminin Qumdan olduğuna dair yazılan fikrə şübhə ilə yanaşdığını bildirir. Nizamini xələfləri, müasirləri və sələfləri ilə müqayisə edir, onun – yaradıcılığının sənətkarlıq xüsusiyyətlərini, üslubunu, bədii söz sahəsindəki ustadanə qələmini yüksək qiymətləndirərək, farsdilli ədəbiyyatda onunla müqayisə ediləcək məsnəvi müəllifinin olmadığını yazır. Azər Buzovnalı Nizami Gəncəvinin yaradıcılığını irfan ədəbiyyatı kontekstində nəzərdən keçirmiş, onun əsərlərindən ayrı-ayrı beytləri farsca orijinalı və özü tərəfindən edilən tərcümələr əsasında klassik poetika baxımından təhlil etmiş, Nizaminin yaratdığı poetik obrazların bənzərsizliyini vurğulamışdır. Məşədi Azər Nizaminin əsərlərini təhlil edərkən, dövrünün tədqiqatçılarından fərqli olaraq, böyük Azərbaycan şairinin dərin inamlı dindar olduğunu, qəlbində həmişə Yaradana məhəbbət bəslədiyini xüsusi olaraq vurğulamışdır. Qeyd etmək lazımdır ki, ədibin hər iki məqaləsi onu həm də bir ədəbiyyatşünas kimi səciyyələndirməyə əsas verir.

Azər Buzovnalının tərcümələri onun bu əsərlərin yazıldığı dilə bələdliyinin, həm də ana dilinin incəliklərinə nə qədər vaqif olmasının bariz nümunəsidir. Şairin tərcümələrinin bədii keyfiyyəti, orijinala sadiqliyi fars, ərəb, türk dillərini mükəmməl bilməsindən əlavə onun ədəbiyyatşünaslığın nəzəri konsepsiyalarına, tərcümə sənətinin prinsiplərinin incəliklərinə

dərindən bələd olması və təcrübi cəhətdən tətbiqetmə bacarığı, vərdişi ilə bağlıdır.

XX əsrin əvvəllərində ədəbi-bədii, ictimai, pedaqoji fəaliyyət göstərən Azər Buzovnalı həm bir vətəndaş, həm də ədəbi həyatın fəal və ustad bir nümayəndəsi kimi öz fikirlərini əsərlərində, eləcə də dünya ədəbiyyatı xəzinəsindən tərcümə etdiyi nümunələrdə ortaya qoymağa çalışırdı. Bədii sənətin bir çox qollarında öz qələmini sınamış, müxtəlif istiqamətlərdə milli ədəbiyyatımıza, mədəniyyətimizə öz töhfəsini vermiş şairin bədii tərcüməçilik fəaliyyəti onun bu sahədəki məharətinin göstəricisidir. Məşədi Azərin Şərq ölkələrinin görkəmli şairlərinin yaradıcılığına müraciət edərək, klassik Şərq poeziyasının şah əsərlərini ana dilimizə çevirməsi sənətkardan məharət və cəsarətlə yanaşı, həm də zəngin söz ehtiyatı, dərin bilik də tələb edirdi. Şairin ömrünün müdrik çağlarında qələmə aldığı bədii tərcümələri onun yaradıcılığının dəyərli tərkib hissəsi kimi diqqətimizi cəlb edir. Mövcud siyasi-ictimai mühitdə öz sözünü sərbəst şəkildə çatdıra bilməmək bir çox şair və yazarlar kimi Azəri də öz ruhuna, daxili dünyasına, ideallarına uyğun əsərləri ana dilimizə tərcümə edərək bu əsərlər vasitəsilə fikirlərini ifadə etməyə məcbur edirdi. Azər Buzovnalı Şərq klassiklərinin əsərlərinin əsas süjet xəttini saxlamaqla bədii tərcümələr etmişdir.

Şairin Əlyazmalar İnstitutunun arxivində mühafizə edilən tərcümələrinin avtoqraf nüsxələri müxtəlif saxlama vahidləri altında cəmlənmişdir. Məşədi Azərin arxivində 1925-ci ildə oğlu Əmir İmaməliyevə ithafən “Şahnamə”dən “Rüstəm Bürzu” dastanının, 1934-cü ildə N. Gəncəvinin “Yeddi gözəl” poemasından 702 beytdən ibarət “Mahanın nağılı”, “Odunçunun hekayəsi”, 1936-cı ildə Sədinin “Bustan”ından birinci dəftərdə 403 beytdən ibarət 20, ikinci dəftərdə 422 beytdən ibarət 13, üçüncü dəftərdə 1096 beytdən ibarət 18, dördüncü dəftərdə 1527 beytdən ibarət 11 hekayənin yer aldığı tərcümələri, 1928-ci ildə türk şairi Faruq Nafizin “Çoban çeşməsi” kitabından müxtəlif məzmunlu şeirləri, yenə “Şahnamə”dən “Rüstəm və Söhrab” dastanı, 1932-ci ildə “Rüstəm və İsfəndiyar” dastanı, tarixi qeyd olunmayan “Səyavuş və Əfrasiyab” dastanlarının tərcümələri saxlanılır.

Qeyd etmək lazımdır ki, XX əsrin 30-cu illərində Əbülqasım Firdovsinin anadan olmasının 1000 illik yubileyi münasibətilə tərtib edilən “Şahnamə” kitabına Azər Buzovnalının da tərcüməsi daxil edilmişdir. Azər Buzovnalı Şərq ədəbiyyatı incilərindən olan “Kəlilə və Dimnə”dən bəzi hekayələri ana dilinə çevirmişdir. Azərbaycan ədəbiyyatında bu əsərə bir çox söz ustadı müraciət etmiş, əsərin mövzusundan bəhrələnmişdir. Nizami

Gəncəvi ilə başlanan bu ənənə sonrakı dövrlərdə Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Abbas Səhhət və başqalarının yaradıcılığında davam etdirilmişdir. Azər Buzovnalı da dövrün ictimai-mədəni hadisələrinə münasibətini ifadə etmək, cəmiyyətdə baş verənlərə öz vətəndaşlıq mövqeyini bildirmək üçün Şərq ədəbiyyatında əxlaqi-didaktik mövzuda yazılan, tövsiyə, nəsihət xarakteri daşıyan əsərlərə müraciət edir, ya onlardan bəzi hissələri tərcümə edir, ya da bu əsərlərdən təsirlənərək bu janrda nümunələr yaradırdı. Şair "Kəlilə və Dimnə"dən 2014 beyt həcmində hekayəni mənzum şəkildə tərcümə etmişdir.

Dissertasiya işinin I fəslinin sonuncu yarımfəsli "**Yaradıcılığının tədqiqi və nəşri tarixi**" adlanır. Azər Buzovnalının çoxşaxəli fəaliyyəti dövrümüzdə ədəbiyyatşünasların diqqətini cəlb etsə də, qələm ustadının yaradıcılığını ətraflı işıqlandıran elmi əsərlər demək olar ki, yoxdur. "Məcməüş-şüəra"nın fəallarından olan Məşədi Azərin yaradıcılığı bir sıra araşdırmaçılar tərəfindən nəzərdən keçirilmişdir. Bu yarımfəsildə ədəbiyyatşünas alimlər Bəkir Nəbiyev, Əziz Mirəhmədov, Cahangir Qəhrəmanov, Məmmədağa Sultanov, Nəsrəddin Qarayev, Ədalət Tahirzadə, Mehri Məmmədova, Paşa Kərimov, Ramiz Faseh Paşayev və başqalarının elmi-tənqidi məqalələri təhlil olunmuş, Azərbaycan ədəbiyyatında şairlə əlaqədar olan fikirlərə yeri gəldikcə münasibət bildirilmişdir.

Azər Buzovnalı irsinin araşdırılması həm Bakı ədəbi mühitinin, həm də bütövlükdə XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının daha dərindən tədqiq olunmasında mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya işinin **"Azər Buzovnalı yaradıcılığının mövzu dairəsi və əsas motivləri**" adlanan II fəsli iki yarımfəsil və üç bənddən ibarətdir. "**Ədəbi irsinə dair mənbələr və ədəbi fəaliyyətinin dövrləri"** adlı birinci yarımfəsildə şairin həyat və yaradıcılığını əks etdirən mənbələr təhlil olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Yaxın və Orta Şərq xalqlarının, o cümlədən, Azərbaycan xalqının görkəmli alim, şair və yazıçılarının zəngin əlyazma irsi mühafizə olunur. Əlyazmalar İnstitutunun xəzinəsində qorunan bu materiallar elm və mədəniyyət xadimlərimizin həyat və yaradıcılığını araşdırmaq, onların zəngin bədii irsini tanıtmaq, o cümlədən, ədəbiyyat tariximizin qaranlıq səhifələrinin tədqiqi baxımından çox dəyərlidir. Milli mədəniyyət tariximizin öyrənilməsində əlyazma materiallarının əhəmiyyətini önə çəkən ədəbiyyatşünas alim Şirindil Alışanlı yazır: "Ədəbiyyatşünaslığımızda ədəbiyyat tariximizi, arxivləri, əlyazmaları tam öyrənmədən, bu mərhələni keçmədən nəzəri səpkili əsərlərin yazılmasında,

həmçinin tarixi poetika üzrə tədqiqatlara meyildə tələsiklik olması mülahizələrilə tez-tez rastlaşırıq. Şübhəsiz, arxivləri, əlyazmaları, eləcə də ədəbiyyat tarixinin öyrənilməmiş səhifələrini tam araşdırmadan, ümumiyyətlə, bunlarsız nəzəri ümumiləşdirmələr ya zəif olacaq, ya da məlum ideyaları təkrar edəcəkdir”[1].

Azər Buzovnalının zəngin ədəbi irsi Əlyazmalar Fonduna 1949-cu ildə şairin özü tərəfindən təqdim edilmiş, materiallar 12 saylı fondda və bir neçə şifrə altında institutun xəzinəsində toplanmışdır. Şairin şəxsi arxivinə daxil olan əsər və şəxsiyyətinə dair sənədlərin yazıldığı tarixlər 1890-1951-ci illəri əhatə edir.

Bu yarımfəsildə şairin ədəbi fəaliyyətini daha dərindən izləmək, əsərlərinin ideya-məzmun, üslubi-estetik keyfiyyətlərini təyin etmək, yaradıcılığının bədii xüsusiyyətlərinin dinamik inkişafını daha geniş və əhatəli əks etdirmək üçün yaradıcılıq yolu aşağıdakı kimi dövrləşdirilmişdir:

1.1885–1900-cü illər – birinci dövr– Gənclik dövrü;

2. 1901–1930-cu illər– ikinci dövr–Yetkinlik dövrü;

3. 1931–1951-ci illər – üçüncü dövr– Kamillik dövrü.

Şairin ilk qələm təcrübələri gənclik dövrünə aiddir. O, yaradıcılığının ilkin dövründə aşiqanə lirikaya daha çox müraciət etmiş, lirik səpkili şeirlər qələmə almışdır. Yaradıcılığının ikinci dövründə şair əruz və heca vəznlərində əsərlər qələmə almışdır. Azər Buzovnalı yaradıcılığının yetkin dövrü sayılan bu illərdə Azərbaycan ədəbiyyatına dəyərli nümunələr bəxş etmiş, bu mərhələdə lirik əsərlərlə yanaşı, ictimai-siyasi məzmunlu qəzəllər də qələmə almışdır. Şairin yaradıcılığının üçüncü - müdriklik çağlarını əhatə edən mərhələ onun ədəbiyyatda sözünü deyən bir şair kimi kamilləşdiyi, bədii xüsusiyyətləri və milliliyi, mənəvi-əxlaqi dəyərləri ilə seçilən əsərlər yaratması ilə səciyyələnir. Bu dövr 1931-ci ildən başlayaraq şairin ömrünün sonuna qədər yəni 1951-ci ilə qədər davam etmişdir.

Dissertasiya işinin II fəslinin ikinci yarımfəsli **“Yaradıcılığının mövzu dairəsi”** adlanır. XX əsrin əvvəllərində müxtəlif ictimai-siyasi hadisələrin təzahür etdiyi bir dövrdə Azər Buzovnalı poeziyası ideya, mövzu, forma və janr baxımından ənənə və yeniliyin sintezi kimi nəzərə çarpırdı. Şairin müxtəlif janr və məzmunda qələmə aldığı əsərləri yaradıcılığının xarakterik cəhətlərini araşdırmağa imkan verir. Azər Buzovnalının poeziyası mövzu dairəsinin kifayət qədər genişliyi ilə də

---

[1]Alışanlı Ş. Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab. Bakı: Elm, 1989, s.7.

diqqəti cəlb edir. Şairin yaradıcılığının təhlili Əlyazmalar İnstitutunun arxivindəki əlyazmaları əsasında tərtib edilmiş ikicildlik kitabına daxil olan 210 qəzəl, 11 heca vəznli şeirləri, bir müstəzadı, "Şahnamə"dən tərcümə etdiyi 2084 və 1948 beytdən ibarət iki dastanı və Şərq ədəbiyyatı incilərindən olan "Kəlilə və Dimnə" dən bəzi hissələri, dörd əxlaqi-didaktik, üç alleqorik mövzulu hekayələri, rübailəri, qitələri, bir təxmisi və nəhayət arxivindəki bir neçə saxlama vahidi altında qruplaşdırılan əlyazmaları əsasında tədqiqata cəlb edilmişdir.

Dissertasiya işinin II fəslinin müxtəlif bəndlərində şairin zəngin irsi mövzu etibarilə aşiqanə-məhəbbət, ictimai, əxlaqi-didaktik, vətənpərvərlik, tarixi mövzulu əsərlər kimi qruplaşdırılaraq, tədqiqata cəlb olunmuşdur. Azər Buzovnalı yaradıcılığının mühüm hissəsini təşkil edən məhəbbət lirikası təkcə incə duyğuların, zərif hisslərin, mənəvi-əxlaqi dəyərlərin tərənnümü deyil, həm də zəmanə insanının lirik-fəlsəfi düşüncəsinin, mənəvi-psixoloji durumunun ifadəsidir. Şairin lirik janrda yazdığı əsərlərinin bir hissəsi ictimai məzmun daşıyır. Fəlsəfi, əxlaqi-didaktik məzmun daşıyan poetik nümunələrdə insanların şüurlarındakı cahillik, sosial təbəqələşmə, cəmiyyətdə mövcud olan mənəvi cəhalət tənqid edilir, cəmiyyətin inkişafında, xalqın ittihad və tərəqqisində elmin, savadın önəmi vurğulanır. XIX əsrin əvvəllərindən etibarən ədəbi əsərlərin başlıca motivlərinə çevrilən maarifçilik ideyaları Azər Buzovnalı əsərlərinin də əsas mövzusu idi. Klassik şeir janrlarında, romantik üslubda əsərlər yazan şair "maarifçilik və demokratizm ideyalarının, xəlqilik və humanizm ruhunun, tənqidi pafos və satiranın gücləndiyi"[1] bir dövrdə bu ədəbi cərəyandan kənarda qala bilməzdi. Azər Buzovnalı da cəmiyyətdə, dünyada baş verən yenilikləri izləyir, sələflərinin və müasirlərinin maarifçilik sahəsindəki fəaliyyətini dəstəkləyərək fərdin, şəxsiyyətin inkişafında, eləcə də cəmiyyətdə sağlam mühitin bərqərar olmasında təlim və tərbiyənin, təhsilin rolunun böyük olduğunu anlayırdı. "Haqq sevənin, haqq danışanın qətlinə fitva" verildiyini deyərək, haqsızlığın baş alıb getdiyi cəmiyyəti ifşa etməkdən usanmayan şair bəzən xəyalındakı ideal cəmiyyəti təsvir edərək, bir növ utopiyadan danışsa da, reallıqla əlaqəni itirmir, "neyləyim qoydu bu fitva ürəyimdə sözümü"[2] ifadələrilə dövrünün siyasi rejimi tərəfindən susdurulduğunu bildirirdi.

Elmin, təhsilin təbliğ edildiyi maarifçilik ruhlu əsərlərində şair bir pedaqoq, nəsihət verən, yolgöstərən ustad kimi çıxış edir. Qəzəllərində

[1]Azərbaycan ədəbiyyat tarixi. Altı cilddə. IV cild. AMEA Nizami ad. Ədəbiyyat İnstitutu. Bakı: 2011, s. 281-282.
[2]Buzovnalı A. Əsərləri. Tərtibçi: K.Bağırova. Bakı: Elm və təhsil, 2012, s.135.

maariflənmənin cəmiyyətin xilasının tək yolu olduğunu vurğulayan şairin bu gün də aktuallığını qoruyub saxlayan əsərləri milli-maarifçi, əxlaqi-didaktik, ictimai-siyasi məzmunu ilə diqqəti cəlb edir.

Ustad sənətkar və pedaqoq olan şair sələflərinin maarifçi düşüncələrini, milli-mənəvi, əxlaqi dəyərləri ehtiva edən ideyalarından bəhrələnir, istər keçmişin təcrübəsini, istərsə də dövrünün yeni meyillərini öz əqlinin süzgəcindən keçirir, köhnənin və yeninin mütərəqqi cəhətlərini əsərlərində yaşatmağa çalışırdı. Azər Buzovnalının "Həmvətənlərimə" adlı mənzuməsi həm əxlaqi-didaktik, həm ictimai-vətənpərvərlik, həm də maarifçilik ideyalarının tərənnüm olunduğu əsər kimi diqqəti cəlb edir:

Sübh açıldı, xabi-qəflətdən iqamət çağıdır,
Nəfsi-xabalud, məşumi-məlamət çağıdır,
Hərz-naməqunli-mazidən nədamət çağıdır,
Yetdi dəmi əhya, əmvatə qiyamət çağıdır,
Həmvətənlər, yatmayın, yatmaq zərərdir, yatmayın!
Çıxdı gün, aləm işıqlandı, səhərdir, yatmayın![1]

Azər Buzovnalının ictimai məzmunlu əsərlərindəki qəmli əhvali-ruhiyyə təkcə müəllifin şəxsi hisslərinə köklənmir, cəmiyyətdəki haqsızlığı, ədalətsizliyi, mənəvi böhranı və bir sıra sosial bəlaları da əhatə edir. Şair hakim qüvvələrin, mövcud siyasi konyunkturanın cəmiyyətin fərdləri üzərindəki haqsızlıqlarını, yalançı dindar qüvvələrin xalqı həm siyasi, həm mənəvi əsarət altında saxlamasını, minlərlə ailələri dağıdan başıpozuq, amansız müharibələri tərənnüm edərək sadalananların olmamasını təmənna edir:

Nə cəng olaydı, nə cəngəvərani-biinsaf,
Nə xəlq əbəs yerə qan bəhrinə şənavər olaydı[2]

Yaradıcılığa lirik şeirlərlə başlayan Məşədi Azər tarixi mənzumələrində min illik tariximizi əhatə edən hadisələri öz bədii təxəyyül süzgəcindən keçirərək bədiiləşdirmişdir. Şair türk mədəniyyəti, onun şanlı tarixi, İslamın zühuru, yayılması, inanc prinsipləri, müxtəlif tarixi hadisələrə aid rəvayət və əfsanələri ümumiləşdirərək, öz dövrü, yaşadığı

[1]Məşədi Azər. Seçilmiş əsərləri. Tərtibçi: R.Azərsoylu-İmaməliyev. Bakı: Boz oğuz-Nicat, 1996, s.177.
[2]Buzovnalı A. Əsərləri. Tərtibçi: K.Bağırova. Bakı: Elm və təhsil, 2012, s.183.

cəmiyyətin problemləri səviyyəsində təqdim etmiş, təkçə Azərbaycan ədəbiyyatı üçün deyil, bütün türk xalqları ədəbiyyatı üçün dəyərli əsərlər yaratmışdır. Məşədi Azər XX əsrin əvvəllərində çətin və sərt şərtlər altında inkişaf etməkdə olan sosial-siyasi vəziyyətdə türkçülük ideologiyasını, islamçılıq məfkurəsini, milli birlik və milli kimlik məsələsini qabartmaq üçün tarixi əsərlərə müraciət edirdi. Azər Buzovnalının tarixi mövzulu əsərləri şairin sağlığında deyil, vəfatından çox-çox sonralar nəşr olunmuşdur.

Azər Buzovnalı 1925-ci ildə “Oğuznamə”ni qələmə almışdır. Şair “Oğuznamə”ni qələmə alarkən Fəzlullah Rəşidəddinin “Oğuznamə”sindən və Əbülqazi Bahadırxanın “Şəcəreyi-tərakimə”sindən təsirlənmişdir. Dastanın bütün süjet xətti, personajlar və onların tarixi missiyası, tarixi hadisələrin baş vermə ardıcıllığı, əksi, səbəb və nəticələri həmin əsərlərlə oxşardır. Bəzi qəhrəmanların, tarixi şəxsiyyətlərin adlarının fərqli olması şairin əsərə özünün bəzi əlavələr etdiyini göstərir. On doqquz yarımbaşlığa ayrılaraq, nəsrlə nəql olunan Fəzlullah Rəşidəddinin əsərindən fərqli olaraq, Azər Buzovnalının “Oğuznamə”sində ümumi süjetin xronoloji ardıcıllığı bölmələrə ayrılmadan saxlanılmış, mövzu nəzmə çəkilmişdir. Şairin “Oğuznamə”si müəllifin özünəməxsus təhkiyə üsulu və dilinin sadəliyi, axıcılığı ilə fərqlənir.

Şair ikinci tarixi mövzulu əsəri “Çingiznamə” ni 1935-ci ildə yazmışdır. Türk-Moğol dövlətinin ən şanlı tarixindən, zəfərlərindən, milli adətlərindən, dövlətçilik ənənələrindən, Türk-Moğol hökmdarı Çingiz xan və onun qurduğu dövlətin tarixindən bəhs edən bu əsər də “Oğuznamə” poeması kimi məsnəvi şəklindədir. Əsərdə tarixi hadisələr, döyüş səhnələri, şəhərlərin fəthi, müxtəlif dövlətlərlə əlaqələr, türk xaqanlarının nəsli, Çingiz xanın şəxsiyyəti, onun bir sərkərdə kimi formalaşması, adının Timuçindən Çingizə keçməsinin səbəbi, hakimiyyətə gəlişi və dövləti idarəetmə üsulu və s. hadisələr tarixi faktlar, qədim mənbələrdən alınan bilgilər əsasında təsvir olunmuşdur.

Yaşadığı dövrün sərt şərtlərinə baxmayaraq onun türk tarixinə, dövlətçilik ənənələrinə, qədim türklərin həyat tərzinə dair iki əsər yazması təsadüfi deyil. Müəllifin “pantürkist”, “millətçi”, “panislamist” adlandırılaraq məhrumiyyətlərə, təqiblərə məruz qalmaqdan çəkinməyərək, siyasi rejimin türk varlığına, onların birliyinə düşmən kəsildiyi bir dövrdə tarixi mövzulara müraciət etməsi mübarizliyinin, vətənpərvərliyinin göstəricisi idi.

Azər Buzovnalı “Qəzavatnamə” adlı dini-tarixi mövzulu əsərini isə 1908-ci ildə qələmə almışdır. Türk xalq ədəbiyyatının, o cümlədən, yazılı

ədəbiyyatının bir növü olan qəzavatnamələrdə İslam uğrunda aparılan döyüşlər təsvir edilmiş, hadisələr yarıgerçək, yarıəfsanəvi şəkildə canlandırılmışdır. Bu dastanlarda oğuz epos ənənəsi davam etdirilmiş, yalnız dini müharibələrdən deyil, oğuz qəhrəmanlarının igidliklərindən də bəhs olunmuşdur.

Məşədi Azərin tarixi mövzulu əsərlərində, ictimai-siyasi lirikasında oxucu, həqiqətən də, xalqın ruhuna bələd olan, millətinin ruhi dünyasını yaxından duyan bir şairlə rastlaşır. Şairin əsərlərində, hətta lirik şeirlərində belə lirik qəhrəman xalqının qarşısındakı tarixi-ictimai məsuliyyətini dərk edən, vəzifəsini anlayan, milli-mənəvi dəyərlərinə sahib çıxan, sabit əqidəli bir insandır.

Dissertasiya işinin **"Azər Buzovnalı yaradıcılığının sənətkarlıq xüsusiyyətləri"** adlanan III fəsli iki yarımfəsil, dörd bənddən ibarətdir. **"Şeirlərinin bədii quruluşu və vəzni"** yarımfəslində şairin əsərləri janr, forma, vəzn məsələlərinə görə tədqiqata cəlb olunmuşdur. Mürəkkəb ictimai-siyasi və fərqli mədəni çağırışlar fonunda XIX əsrin sonu – XX əsrin əvvəllərində ədəbiyyatda janr və üslub keyfiyyətləri dəyişir, sovet ədəbiyyatının yeni standartları içində dəyişməyə üz qoyan ədəbiyyatın yaşadığı bu keyfiyyət dəyişiklikləri bütün janrlarda olduğu kimi, poeziyada da yeni bir mərhələnin başlanğıcını qoyurdu. Belə ki, "klassik ədəbiyyatdan və folklordan gələn ədəbi janrlar ideya-məzmun, mövzu-problematika baxımından diqqətəlayiq təkamül keçirir"[1], klassik poetik janrlar, xüsusən də qəzəl, qəsidə, müxəmməs, rübai kimi lirik janrlar, eləcə də alleqoriyanın üstünlük təşkil etdiyi mənzum hekayə dövrün ictimai-siyasi və mənəvi-əxlaqi problemlərini əks etdirən güzgü kimi öz mövqeyini qoruyurdu. Əlbəttə ki, bu janrlarda yazılan poetik nümunələrin məzmun, motiv və ideyasında yeni, fərqli keyfiyyətlər öz əksini tapırdı. Çünki forma və janrından asılı olmayaraq "həyat həqiqətlərinin poetik təcəssümü və bədii kəşfi yaradıcılıq prosesinin əsas qayəsini"[2] təşkil edirdi.

Şairin bədii irsi poetik forma və janr baxımından rəngarəngdir. Onun ana dilində qələmə aldığı heca və əruz vəznli şeirləri, müxtəlif məzmunlu qəzəl, qəsidə, rübai, qitə, növhə və müstəzadları, tarixi və alleqorik əsərləri ilə yanaşı farsca yazdığı təkbeyt, qitə, rübai, mürəbbe və qəzəlləri vardır.

Klassik ədəbi ənənələrə bağlılıq, Füzuli və Nəvai sənətinə, o cümlədən, klassik Şərq ədəbiyyatının dahi söz ustadlarının əsərlərinə olan ehtiram və rəğbət ədəbi məclis üzvlərinin əsərlərinə də təsir etmiş, onlar

---

[1]Həşimli H.M. XX əsr Azərbaycan ədəbiyyatında yeni lirik janrlar. (Metodik vəsait). Bakı: Elm, 2002, s.5.

[2]Hüseynov M. A. Şeirşünaslıqda dil sənətkarlığı. Bakı: Elm, 2007, s.21.

sələflərinin üslubuna uyğun şeirlər, təxmislər qələmə almışlar. Klassik ədəbi ənənələrin davamçısı olan Məşədi Azər dahi fars şairi Hafiz Şirazi qəzəlinə 11 bəndlik farsca təxmis yazmışdır.[1]

Azər Buzovnalı həmçinin, klassik Azərbaycan şairlərindən Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, fars şairi Əbülqasım Firdovsi, özbək şairi Əlişir Nəvai yaradıcılığının mənəvi kamilliyindən qidalanaraq dəyərli sənət nümunələri yaratmış, nəzirələr qələmə almışdır. Azərbaycan ədəbiyyatında elə bir qələm əhli tapılmaz ki, onun yaradıcılığında Nizami, Füzuli ruhu duyulmasın, klassik ədəbiyyatdan təsirlənməsin. Nəzm yazan ustad şairlər örnək şeirin bir sıra cəhətlərini əxz etməklə bərabər istedadları, poetik texnikaya yiyələnmələri sayəsində özünəməxsus üslublarını da nümayiş etdirir, bədii fikri, ideyanı fərqli şəkildə təqdim edirdilər. Azər Buzovnalının nəzirələri bir sıra müasiri olmuş şairlərin əsərlərindən fərqli olaraq, yeni məzmun, yeni bədii keyfiyyət daşıyır. Onun Füzuliyə, Nəvaiyə yazdığı nəzirələri təbii olaraq klassik üsluba söykənsə də, burada yeni fikirlərin ifadəsi, dərin məzmun, yeni forma və ideya axtarışları səyi aydın şəkildə sezilir. Azər Buzovnalının arxivində aşkar edilmiş Əlişir Nəvai şeirlərinə "Beş qəzəl"[2] başlıqlı nəzirələrin cığatayca olan orijinallarının da şair tərəfindən qeyd olunması göstərir ki, Azər Nəvai əsərlərinin əsas nüsxələrini əldə etmiş, ədəbi irsi ilə maraqlanmışdır.

XX əsrin əvvəllərində yeni inkişaf yoluna qədəm qoyan milli ədəbiyyatımızda mənzum hekayə janrı yenə də dominant mövqedə idi. Lakin bu dövr mənzum hekayəçilik ənənəsi daha çox ictimai xarakter daşıyırdı. XIX əsrin sonlarında ədəbi mühitə qədəm qoyan Məşədi Azərin yaradıcılığının müəyyən hissəsini onun mənzum formada yazdığı müxtəlif məzmunlu hekayələri təşkil edir. Azər Buzovnalı öz ictimai fikirlərini, cəmiyyətdə baş verən müxtəlif hadisələrə münasibətini əxlaqi-didaktik, nəsihətamiz, alleqorik səciyyəli əsərləri vasitəsi ilə bildirirdi. Ustad şair mənzum hekayələrində humanist fikirlərini ifadə edərək, hekayələrindəki obrazların, hadisələrin vasitəsi ilə cəmiyyətdəki çatışmazlıqlara vətəndaşlıq mövqeyini nümayiş etdirmişdir. Şair mənzum hekayələrində insani keyfiyyətləri, humanist duyğuları tərənnüm edir, hiylə, riya, yalan,

---

[1]AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Fond 12, sax. vah. 2.

[2]AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Fond 12, sax. vah. 96.

ikiüzlülük, hərislik, tamah, xəsislik, müştəbehlik kimi mənfi xüsusiyyətləri sadə dil və nəsihətamiz ifadələrlə tənqid edirdi. Şairin "Əhmədlə Mahmud", "İki tat", "Xan və vəzir", "Sadə kişi ilə oğru" adlı əxlaqi-didaktik, "Arpa və buğda", "Altun və polad", "Səyyad və mürğ", "Bozbaş və lavaş" adlı alleqorik üslubda yazılmış hekayələrinə nəsihətamiz təhkiyə ilə bərabər incə yumora söykənən satirik bir üslub da hakimdir.

Dissertasiya işinin III fəslinin ikinci bəndi "**Yaradıcılığında vəzn məsələləri**" adlanır. XIX əsrin sonu – XX əsrin əvvəllərində baş verən ictimai-siyasi, mədəni inqilabların, məfkurəvi dəyişikliklər fonunda gedən proseslərin milli ədəbiyyatımızda əks olunması müxtəlif ədəbi istiqamətlərin, cərəyanların formalaşmasına, müəyyənləşməsinə və sabitləşməsinə səbəb olmuşdur. Mürəkkəb bir dövrdə yazıb-yaradan Azər Buzovnalının lirik yaradıcılığı müxtəlif janrlara bölünərək tədqiq obyektinə çevrilə biləcək qədər zəngin və rəngarəngdir. Lirik şair, ustad qəzəlxan kimi tanınan Azər Buzovnalı öz əsərlərini müxtəlif janrlarda, əruz vəzninin müxtəlif bəhrlərində yaratmışdır. Yaradıcılığa heca vəznli şeirlərlə başlayan şair sonrakı dövrlərdə bu vəznə az müraciət etsə də, gözəl şeir nümunələri yaratmışdır.

Bu bölmədə Məşədi Azərin əruz və heca vəznli şeirləri tədqiqata cəlb edilmiş, şairin əruz vəznindəki şeirlərinin bəhrləri müəyyənləşdirilmiş, təhlil və ümumiləşdirmələr əsasında müəyyən statistik nəticələr əldə olunmuşdur. Bəzi qəzəllərinin təhlili göstərir ki, şair əruz vəzninin bir çox bəhrlərində, xüsusilə, həzəc, rəməl, rəcəz bəhrlərində şeirlər qələmə almışdır.

Dissertasiya işinin **III fəslinin "Yaradıcılığının poetik xüsusiyyətləri"** adlı ikinci yarımfəsli **"Bədii ifadə vasitələri"** və **"Dil-üslub xüsusiyyətləri"** başlıqları altında iki səndə ayrılmışdır. Birinci bənddə Azər Buzovnalının bədii irsi sənətkarlıq xüsusiyyətləri baxımından tədqiqata cəlb olunmuş, zəngin poetik fiqurları əks etdirən qiymətli sənət nümunələri təhlil edilmişdir. Azərbaycan ədəbi dilinin zənginliklərindən ustalıqla bəhrələnən şair klassik ədəbi janrlar üçün xarakterik olan hər bir poetik fiqurdan öz əsərlərində məharətlə istifadə etmişdir. "Poetikanın əsasını gerçəkliyi zəngin və çeşidli şairanə boyalarla canlandıran bədii estetik düşüncə tərzi"[1] təşkil edir ki, bu da öz ifadəsini müxtəlif bədii təsvir və ifadə vasitələrində tapır. Şair bədii ifadə vasitələrindən yerində və məharətlə istifadə edərək, sözün estetik təsirini yüksəltmiş, ahəngdarlığını, poetik keyfiyyətini artırmış, əsərlərin əsas ideyasını, bədii gücünü

---

[1]Quliyeva M.H. Şərq poetikasının əsas kateqoriyaları. Bakı: Maarif, 2010, s.8

qabartmışdır. Şairin şeirləri bu mənada öz poetik kamilliyi, forma bitkinliyi ilə seçilir.

Bədii yaradıcılıqda məcazlar təsvir vasitələri kimi sözün malik olduğu imkanların ən gözəl və ən təsirli ifadəsidir. Şair klassik ədəbiyyatda işlənən bədii təkrir, təşbeh, mübaliğə, epitet, istiarə, təzad və sairə kimi vasitələrdən istifadə edərkən sələflərinin yaratdığı qəlib ifadələri əsərlərinə daşımaqla bərabər, özü də orijinal məcazlar sistemi meydana gətirmişdir. Azər Buzovnalı sözün məcazi gücündən təsirlənərək, obrazlılığın dəqiq və canlı təcəssümü, lirik qəhrəmanların mənəvi-psixoloji durumunun açılması, emosional duyğunun koloritli və lirik ifadəsi üçün təşbehdən bir bədii vasitə kimi yararlanmışdır. Şairin poeziyasının yüksək emosionallığını bədii keyfiyyəti artıran, söz oyunları quran, bədii fikrə, sözə ecazkarlıq, cazibədarlıq verən ifadə vasitələrindən istifadə bacarığı müəyyən edir. Azər Buzovnalının yaratdığı məcazlar, obrazlar həm əsərin mövzusundan, ideyasından, həm də şairin daxili dünyasından asılı olaraq, onun vermək istədiyi poetik məlumatı zənginləşdirir. Qeyd etmək lazımdır ki, şairin məhz nikbin ovqatdan qaynaqlanan mənəvi keyfiyyətləri onun əsərlərinin canına hopmuş, təmiz, ülvi hisslərin carçısı kimi çıxış etmişdir.

**“Azər Buzovnalı şeirlərinin dil-üslub xüsusiyyətləri”** adlı ikinci bənddə şairin yaradıcılığının dil və üslub xüsusiyyətləri araşdırılmışdır.

Hər bir dövrün ədəbi dilinin inkişafını, səciyyəvi xüsusiyyətlərini aydınlaşdırmaq, müəyyən etmək, bu dəyişiklikləri izləmək üçün ilk növbədə həmin dövrün söz ustadlarının dilini müxtəlif səviyyələrdə təhlilə cəlb etmək, onların əsərlərini araşdırmaq lazımdır. Çünki yazıçının, şairin yaradıcılığı həyat həqiqətlərinin əksi olduğu kimi, həm də ədəbi dilimizin, söz xəzinəmizin aynasıdır. XIX yüzilin sonu - XX yüzilin əvvəllərində yazıb-yaradan ədiblər klassik üslubda poeziya nümunələri yaratsalar da, onlar öz əsərlərinə xalq danışıq dilinə məxsus xüsusiyyətləri gətirməyə meyilli idilər. Bu dövrdə yeni bədii formalarla yanaşı, klassik ənənələrin davamı özlüyündə klassik dil xüsusiyyətlərini də yaşadırdı. Bu mənada Nizami, Nəvai, Füzulinin xələfi Məşədi Azərin dilində ərəb-fars sözlərinin və söz birləşmələrinin işlənməsini təbii qarşılamaq lazımdır. XX əsrin əvvəllərində xüsusi bir cərəyan kimi inkişaf edən klassik-romantik üslubun nümayəndəsi Məşədi Azər bu üslubun bütün formal tələblərinə riayət edirdi. Onun əsərlərində klassik ədəbi ifadələr, tərkiblər üslub mövqeyindən irəli gələrək Şərq poetik ənənəsi çərçivəsindən kənara çıxmırdı.

Yaradıcılığında klassik poetik ənənələri davam etdirən Azər Buzovnalının lirikasının dili təbii olaraq klassik kitab üslubunun tələb

etdiyi dil xüsusiyyətlərini əks etdirirdi. Bu mənada ədəbiyyatşünas Paşa Kərimovun “klassik poeziya sirlərinə yiyələnən, şeirin poetik tələblərini anlayan şairlərin əsərlərində ərəb-fars söz və ifadələrinə rast gəlinir ki, klassik ədəbi ənənələr fonunda dövrün anadilli lirikasında belə faktlarla rastlaşmamaq, əlbəttə ki, təəccüblü görünərdi”[1] fikri ilə razılaşmamaq mümkün deyil. Alimin diqqət çəkdiyi bu cəhət Azər Buzovnalı yaradıcılığında da müşahidə olunur.

Azər Buzovnalı klassik Azərbaycan ədəbiyyatının əsas əlamətlərindən biri olan ərəb-fars söz və tərkiblərindən, qəlib ifadələrdən geniş istifadə etmiş, yeri gəldikcə klassik poeziyanın əsas göstəricilərindən olan izafət tərkibləri, çoxkomponentli söz birləşmələri işlətmiş, bəzi hallarda özü orijinal ifadələr yaratmışdır. Bununla bərabər, şair cəmiyyətdə baş verən yeniliklərə və dil islahatlarına etinasız qalmamış, milli dilə olan təəssübkeşliyinin nəticəsi olaraq XIX-XX əsrlər Azərbaycan xalq dili xüsusiyyətlərini, incəliklərini, dərindən vaqif olduğu ana dilimizin ədəbi normalarını da şeir dilində əks etdirmişdir. Azər Buzovnalı əsərlərinin leksik qatını təşkil edən ərəb-fars sözləri iki qrupa ayrılır:

a) Mənası tam və ya müəyyən qədər anlaşılan ərəb-fars söz və tərkibləri: şikəst, rövşən, səba, mah, şəb, çeşm, sal, didə, siyah, əks, əğyar, bimar, müdam, səyyad, ziba, duzəx, dəhr, nihan, nəqş, təşnə, xun, buy və s.

b) Bu gün çətin anlaşılan və ya tamamilə dilin arxaik qatına keçən ərəb-fars söz və tərkibləri: münqad, şərər, ləlqun, vird, tərh, pərtöv, peyvəstə, sərməşq, dərəşq, tar, rümuz, düşvar, dirrin, dəstgir, rud, təqsim, bavər, şükuh və s.

Bundan əlavə şairin əsərlərində işlənən türk mənşəli sözlər sistemləşdirilmiş və bu sözlərin müxtəlif formalarda təzahürü təhlil edilərək, öz növbəsində iki qrupa bölünmüşdür:

a) XX əsrin əvvəllərində yaranan poetik nümunələrdə az rast gəlinən qədim türk leksik qatı: yalavac, urdu, uruğ, ayaqçı, ayağ, yoqaldı, irmək, uyğu, düğün, kaplumbağa, irmaq və s.

b) Bu gün digər türk dillərində işlənilən qədim türk mənşəli söz və ifadələr: çelik, altun, kımız, buza (boza), çok, siyah, kırk sənə, yetmək, yapmak, düğün, kaplumbağa, irmaq, bəklə, kavğa, koşmağa, baba, çocuk, öyle, hepsi, ceylan, işte, öteki, yemin, iyilik, yakdı, nerede, yağmur, yıkamaq, yigit və s.

---

[1]Kərimov P.Ə. XVII əsr anadilli Azərbaycan lirikası. Bakı: Nurlan, 2011, s.322.

Bəzi qəzəllərində Nəvainin təsiri ilə cığatay dilinə (orta əsrlər özbək dili) məxsus olan leksik vahidlərin işləndiyini görmək mümkündür. Bundan başqa morfoloji göstəricilərdə çığatay elementləri qeydə alınmışdır: görgəc, bolğay, olğac, bolğalı, yaşamaqlıq, ölmegligin və s.

XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının nümayəndələri özündən əvvəlki tarixi köklərə, ənənələrə sadiq qalaraq, bu zəmində yeni formalar meydana gətirərək, dövrün nəbzini tutmağa, yenilikləri əks etdirməyə çalışırdılar. Bu zaman forma və məzmundan irəli gələrək əsərlərin, yaranan bədii nümunələrin dili də iki şaxəyə ayrılırdı: klassik dil üslubu və yenilikçi, milli ruhlu dil üslubu. Bu iki bir-birinə zidd qütb Məşədi Azər yaradıcılığında sintez şəklində öz təcəssümünü tapmış, beləliklə, şairin dilində iki fərqli istiqamət özünəməxsus çalarlarla əks olunmuşdur.

Sovet siyasi rejiminin təzyiqləri altında yazıb-yaradan Məşədi Azərin yaradıcılığında dövrün milli-mənəvi mənzərəsi, ideoloji mühiti, aktual ictimai mətləblərin ifadəsi özünəməxsus boyalarla tərənnüm edilmişdir. Ədibin XX əsrdə klassik şeirə, əruz vəznində yazılan nümunələrə üstünlük verməsi, klassik-romantik ədəbi axının bir nümayəndəsi kimi milli ruhda əsərlər ərsəyə gətirməsi heç də köhnəliyin təqlidi deyil, əksinə gələcəyə, azad həyata, milli birliyə olan sevdanın, ümidin, inancın təzahürü idi. Yaradıcılığının təhlili sübut edir ki, şair ənənəvi şeirin forma və qəliblərindən məharətlə istifadə etmiş, bu forma və qəliblər onun yaradıcılığında yeni məna və məzmun gətirmişdir.

Azər Buzovnalı öz yaradıcılığında cəmiyyətdə baş verən hadisələri, müasirlərinin sevinc və həyəcanlarını, duyğu və düşüncələrini öz ədəbi təxəyyül imkanları ilə, bir rəssam kimi əlvan boyalarla əks etdirmişdir. Əsərlərindəki bədii məni bəşəri fikirlərin, milli hiss və duyğuların, arzu və ideallarin carçısı kimi çıxış edir, Azər Buzovnalının yaradıcılıq simasını üzə çıxarır. Şairin yaradıcılığı onu həm klassik ənənələrin davamçısı, həm də köhnə formaya yeni məzmun verən novator sənətkar kimi səciyyələndirməyə əsas verir. Bütün bunlar Azər Buzovnalı yaradıcılığının Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus və xüsusi yeri olduğunu təsdiqləyir.

Dissertasiya işinin **"Nəticə"** hissəsində milli-mənəvi dəyərlərimizi, tarixi keçmişimizi öz yaradıcılığında əks etdirən Azər Buzovnalının yaradıcılığının həm nəşr olunmuş mənbələr, həm də əlyazma qaynaqları əsasında geniş tədqiqi zamanı əldə olunmuş elmi nəticələr və əsas elmi-nəzəri qənaətlər, müddəalar ümumiləşdirilmişdir.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları Azərbaycanda və xarici ölkələrdə dərc edilmiş aşagıdakı kitab, məqalə və məruzələrdə öz əksini tapmışdır:**

## Kitablar

1. Buzovnalı A. Seçilmiş əsərləri. Mətni transfoneliterasiya edib nəşrə hazırlayan və ön sözün müəllifi: A. Ramazanov, K. Bağırova. Bakı: Nurlan, 2007, 236 s.

2. Buzovnalı A. Əsərləri. Mətni transfoneliterasiya edib nəşrə hazırlayan və ön sözün müəllifi: K. Bağırova. Bakı: Elm və təhsil, 2012, 324 s.

3. Bağırova K. Azər Buzovnalı arxivinin təsviri. Bakı: AFpoliqrAF, 2015, 128 s.

## Məqalələr

1. Azər Buzovnalının tərcümə yaradıcılığı // Filologiya məsələləri, 2011, №12, s.226-231.

2. Azər Buzovnalının yaradıcılığında bədii ifadə vasitələri // Varlıq (Türkcə-farsca kültürəl jurnalı), Tehran, 2013, №167, s. 10-18.

3. Azər Buzovnalının heca vəznli şeirləri / Ümumilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XIII Respublika elmi-konfrans materialları. Bakı, 24 may 2013-cü il, s. 448-454.

4. Azər Buzovnalı və müasirləri // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, 2014, №1(89), s. 160-164.

5. Azər Buzovnalının həyatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2014, №2, s. 153-156.

6. Azər Buzovnalı yaradıcılığında nəzirələr / AMEA-nın 70, Əlyazmalar İnstitutunun 65 illik yubileyinə həsr olunmuş Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri XIV Respublika elmi konfransının materialları. Bakı, 22-24 may, 2015-ci il, s. 17-20.

7. Meşedi Azer tarafından yazılan bir "Gazavatname" hakkında / III Beynəlxalq Xalq Kültürü Simpoziumu. (Məqalələr Toplusu, I cild). Ankara, 08-10 oktyabr, 2015-ci il, s. 213-218.

8. Azər Buzovnalı yaradıcılığında rübai / Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər. Beynəlxalq elmi konfransın

materialları. Bakı, 3-5 may, 2016-cı il, I hissə, s. 100-106.

9. Azər Buzovnalı yaradıcılığının tədqiqi və nəşri tarixi haqqında // “Təfəkkür” elmi xəbərlər jurnalı, 2016, №3 (12), s. 100-106.

10. Azər Buzovnalının məhəbbət lirikası // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar elmlər seriyası, 2017, №1, s. 70-75.

11. XX əsrdə yazılan Qəzavatnamə İslam tarixinin öyrənilməsində bir mənbə kimi / AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu “Azərbaycan əlyazmaları dünya kitabxanalarında” II Beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı, 29 noyabr 2017, s. 63-65.

12. Поэтическая «Огузнаме» XX века // Литература в контексте культуры. Сборник научных трудов. Днепропетровский Национальный Университет имени Олеся Гончара. Киев Видавничий дом Дмитра Бураго, 2018. № 29, с. 29-35.

13. Azər Buzovnalının lirik yaradıcılığında əruz vəznli şeirlər // Filologiya məsələləri, 2018, №6, s. 352-358.

**Кенуль Сабир кызы Багирова**

**Поэтическое наследие Азера Бузовналы**

## РЕЗЮМЕ

В диссертации под названием «Поэтическое наследие Азера Бузовналы» исследуется жизнь и творчество, поэтика, тематика и особенности языка и стиля литературного наследия Азера Бузовналы, жившего и творившего во второй половине XIX – в первой половине XX веков. Диссертация состоит из введения, трех глав, заключения и списка литературы.

Во «Введении» передана краткая информация об актуальности темы, объекте и предмете, целях и задачах, научной новизне, научно-теоретических и методологических основах, практической значимости и апробации работы.

В первой главе диссертации под названием «Жизнь и творческий путь Азера Бузовналы» к анализу привлекаются жизнь, эпоха, современники, общественная и переводческая деятельность, вопросы издания и истории исследования художественного творчества поэта.

Во второй главе под названием «Тематика и основные мотивы творчества Азера Бузовналы» к исследованию привлекаются источники по литературному наследию Азера Бузовналы, тематика его творчества, любовная тема, общественные, нравственно-дидактические, патриотические мотивы в его стихотворениях по историческую тему.

В третьей главе диссертации, названной «Художественные особенности творчества Азера Бузовналы» с литературоведческой позиции оценивается художественная структура, особенности жанра и формы стихотворений поэта, вопросы размера, поэтические, языковые и стилистические особенности в его поэзии.

В «Заключении» диссертации в системной форме обобщены научные результаты достигнутые путем обширного исследования творчества Азера Бузовналы, как на основе опубликованных материалов, а также в рукописных источников.

**Konul Sabir gizi Baghirova**

**Azer Buzovnali's poetical heritage**

**SUMMARY**

In the dissertation work named "Azer Buzovnali's poetical heritage" is researched the life and activities, the poetics of the literary heritage, theme questions and language-style features of Azer Buzovnali, who lived and created during the second half of the 19th century and the first half of the 20th one.

The dissertation work consists of the introduction, three chapters, conclusion and the literary sources.

The "Introduction" part gives information about the urgency of the topic, its object and subject, goals and duties, scientific innovation, scientific-theoretical and methodological principles, practical importance and approbation.

The first chapter named "Azer Buzovnali's life and creative activity" analyzes the poet's life, period, contemporaries, social and translatorship activities. The history of the publication and research of his literary activities is also studied in this chapter.

The second chapter named "Subject sphere and the principal causes of Azer Buzovnali's activities draws into research the sources about Azer Buzovnali's literary heritage, the subject sphere of his activities, love theme, social, moral-didactic and patriotic motives in his poems and his works in the historical theme.

In the third chapter named "Mastership characteristics of Azer Buzovnali's activities" are analyzed the artistic structure, characteristics of genre and form of the poems of the poet, questions of measure, poetical and language-style features from the philological point of view. In the "Conclusion" part of the dissertation work are generalized the scientific results got on the basis of the comprehensive research of both published and manuscript sources of Azer Buzovnali.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ**

***На правах рукописи***

**КЕНУЛЬ САБИР кызы БАГИРОВА**

# ПОЭТИЧЕСКОЕ НАСЛЕДИЕ АЗЕРА БУЗОВНАЛЫ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ – 2018**